# Mehmet YÜCE: "Xankəndidə keçirilən ECO Zirvə görüşü həm də güclü və diplomatik mesaj oldu"

**"İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşünün Azərbaycanda, özü də Xankəndidə keçirilməsi həm də güclü, əhatəli geosiyasi və diplomatik bir mesaj oldu. Zirvə görüşündə Azərbaycan, Türkiyə və Pakistan liderlərinin səmimi münasibətləri üç ölkə arasında dərinləşən əməkdaşlığın bir göstəricisi idi. Həmçinin İran Prezidenti Məsud Pezeşkianın və Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tataрın tədbirdə iştirak etməsi həm türk dünyası, həm də regional əməkdaşlıq baxımından olduqca əhəmiyyətlidir".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Uludağ Universitetinin professoru, iqtisadçı, türk dünyası üzrə mütəxəssis Mehmet Yüce ifadə edib.

ECO Zirvə görüşünün Xankəndidə keçirilməsinin sıradan diplomatik qərar olmadığını qeyd edən professor deyib: "Bu, suverenlik, beynəlxalq tanınma, regional inteqrasiya və rəmzi güc nümayişi baxımından strateji addım idi. Bu, eyni zamanda Qarabağda müharibədən sonrakı nizamın artıq bərqərar olunduğunu və bunu iqtisadi vasitələrlə möhkəmləndirmək istəyini göstərir. Əvvəlki Zirvə görüşlərini geridə qoyaraq, daha canlı, proaktiv və mesajlarla zəngin olan bu görüş postmüharibə dövrünün bərpa mərhələsinin dönüş nöqtələrindən biri kimi tarixə düşəcək. Fikrimcə, bu görüşün verdiyi mesajları üç başlıq altında toplamaq mümkündür: "Rəmzi məna və suverenlik", "Regional inteqrasiya və Qarabağın tanıdılması" və "Türk dünyası kontekstində məsələyə baxış". Bildiyimiz kimi, ECO iqtisadiyönümlü bir təşkilatdır və onun Zirvə görüşünün Qarabağda keçirilməsini bölgəni ticarət, sərmayə və nəqliyyat inteqrasiyası baxımından yenidən qurulan bir mərkəzə çevirmək strategiyasının tərkib hissəsi kimi görmək olar. Yəni bu görüşün Qarabağın enerji xətlərinə, nəqliyyat şəbəkələrinə və regional layihələrə inteqrasiyası prosesini də sürətləndirəcəyini düşünürəm. Görüşdə türk dövlətləri liderlərinin ön planda olması və aralarındakı səmimi görüntülər isə diqqətləri yenidən Türk Dövlətləri Təşkilatına yönəltdi. Bu baxımdan Xankəndidəki Zirvə görüşü türk dünyası baxımından da mühüm addım oldu. Bu hadisə türk dünyasının artıq yalnız etnik və ya mədəni kimlik deyil, eyni zamanda strateji bir aktor olaraq dünya siyasətində yer almağa başladığının güclü sübutudur".

Mehmet Yüce Zirvə görüşünə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın qatılmasının da xüsusi əhəmiyyət kəsb etdiyini bildirib. "Bu, qardaş ölkələrin ŞKTC ilə dialoqlarını davam etdirdiyi mesajını verir, digər tərəfdən isə Şimali Kiprin beynəlxalq miqyasda tanınması və türk dünyasının Kipr türklərinə sahib çıxması baxımından olduqca mənalı və strateji bir addımdır".

Azərbaycan.-2025.- 8 iyul (№ 137).- S.4.